Xalq qəzeti .- 2022.- 16 mart.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 77** **Bakı şəhəri, 12 mart 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 292, № 10, maddə 1905; 2018, № 2, maddə 351, № 4, maddə 817, № 11, maddə 2432, № 12 (II kitab), maddə 2749; 2019, № 3, maddə 517; 2020, № 2, maddələr 183, 199, № 5, maddə 650, № 8, maddə 1108; 2021, № 8, maddə 969, № 9, maddə 1052; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 22 fevral tarixli 51 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 2.3-2-ci bənd əlavə edilsin:

"2.3-2. Abituriyentlər ali təhsil müəssisələrinə sənəd qəbulu zamanı I ixtisas qrupu üzrə elektron ərizə doldurarkən, öz istəklərinə uyğun olaraq ərizələrində təhsil almaq istədikləri ixtisas və ya ixtisaslara uyğun olan iki altqrupdan birini, yaxud hər iki altqrupu seçməlidirlər.";

1.2. 3.8.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.8.1. I ixtisas qrupu:

3.8.1.1. riyaziyyat-kimya (RK) altqrupuna daxil olan ixtisaslar üzrə - riyaziyyat (nisbi əmsal:1,5), fizika (nisbi əmsal:1,5) və kimya (nisbi əmsal:1);

3.8.1.2. riyaziyyat-informatika (Rİ) altqrupuna daxil olan ixtisaslar üzrə - riyaziyyat (nisbi əmsal:1,5), fizika (nisbi əmsal:1,5) və informatika (nisbi əmsal:1);";

1.3. aşağıdakı məzmunda 3.9-2-ci bənd əlavə edilsin:

"3.9-2. I ixtisas qrupu üzrə riyaziyyat-kimya (RK) altqrupuna daxil olan ixtisasların müsabiqəsi ilə yanaşı, riyaziyyat-informatika (Rİ) altqrupuna daxil olan ixtisasların müsabiqəsində də iştirak etmək istəyən abituriyentlər əlavə olaraq informatika fənnindən fərq imtahanı verməlidirlər.";

1.4. Qaydalara 1 nömrəli əlavə - "İxtisas qrupları və ixtisaslar"ın I ixtisas qrupu sütunu "İxtisasların adı" sətrindən sonra "Riyaziyyat-kimya (RK) altqrupu" və "Riyaziyyat-informatika (Rİ) altqrupu" adlı iki sütuna bölünməklə aşağıdakı redaksiyada verilsin:

| Riyaziyyat-kimya (RK) altqrupu | Riyaziyyat-informatika (Rİ) altqrupu |
|---|---|
| 1 | 2 |
| 1. Fizika müəllimliyi<br>2. Riyaziyyat müəllimliyi<br>3. Texnologiya müəllimliyi<br>4. Fizika<br>5. Geologiya<br>6. Mexanika<br>7. Riyaziyyat<br>8. Aerokosmik mühəndislik<br>9. Aqromühəndislik | 1. İnformatika müəllimliyi<br>2. Riyaziyyat və informatika müəllimliyi<br>3. Kompüter elmləri<br>4. İnformasiya təhlükəsizliyi<br>5. İnformasiya texnologiyaları<br>6. Kompüter mühəndisliyi<br>7. Mexatronika və robototexnika mühəndisliyi |
| 10. Aviasiya təhlükəsizliyi mühəndisliyi<br>11. Cihaz mühəndisliyi<br>12. Dəniz naviqasiyası mühəndisliyi | 8. Proseslərin avtomatlaşdırılması mühəndisliyi<br>9. Sistemlər mühəndisliyi |
| 13. Ekologiya mühəndisliyi<br>14. Elektrik və elektronika mühəndisliyi<br>15. Energetika mühəndisliyi<br>16. Gəmi energetik qurğularının istismarı mühəndisliyi<br>17. Gəmiqayırma.və.gəmi.təmiri mühəndisliyi<br>18. Geologiya və geofizika mühəndisliyi<br>19. Geomatika və geodeziya mühəndisliyi<br>20. Hava nəqliyyatının hərəkətinin təşkili<br>21. Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi<br>22. İnşaat mühəndisliyi<br>23. Kimya mühəndisliyi<br>24. Kommunikasiya sistemləri mühəndisliyi<br>25. Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi<br>26. Maşın mühəndisliyi<br>27. Materiallar mühəndisliyi | |
| 28. Mədən mühəndisliyi<br>29. Meliorasiya mühəndisliyi<br>30. Memarlıq*<br>31. Metallurgiya mühəndisliyi<br>32. Mexanika mühəndisliyi<br>33. Mühəndis fizikası<br>34. Neft-qaz mühəndisliyi<br>35. Nəqliyyat mühəndisliyi<br>36. Nəqliyyat tikintisi mühəndisliyi<br>37. Qida mühəndisliyi<br>38. Radiotexnika və telekommunikasiya mühəndisliyi<br>39. Şəhərsalma<br>40. Sənaye mühəndisliyi<br>41. Uçuş mühəndisliyi<br>42. Yanğın təhlükəsizliyi mühəndisliyi<br>43. Aqronomluq<br>44. Balıqçılıq<br>45. Meşəçilik<br>46. Şərabçılıq<br>47. Torpaqşünaslıq və aqrokimya<br>48..Yerquruluşu və daşınmaz əmlakın kadastrı<br>49. Zoomühəndislik<br>50..Hərbi kompozisiya materialları mühəndisliyi<br>51. Hərbi rabitə vasitələri mühəndisliyi<br>52. Optotexnika mühəndisliyi<br>53..Pirotexniki və partladıcı vasitələr mühəndisliyi<br>54. Sərhəd təhlükəsizliyi və idarəetmə<br>55. Silah və silah sistemləri mühəndisliyi | |

**2.** Bu Qərar 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***